DÖVLƏT VERGİ XİDMƏTİ

# Torpaq vergisi ödəyicilərinin nəzərinə!

Mülkiyyətində və ya istifadəsində icarə və ya digər əsaslarla torpaq sahələri olan, o cümlədən dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələrini icarə və digər əsaslarla istifadə edən fiziki şəxslər və müəssisələr torpaq vergisinin ödəyiciləridir.

**Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən 01.01.2022-ci il tarixdən etibarən**

Geoloji ayırma sənədi əsasında faydalı qazıntı yataqlarının (neft və qaz yataqları istisna olmaqla) axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı işlərinə cəlb edilən torpaq sahələrinə görə torpaq vergisi müvafiq təsdiqedici sənədlər əsasında 75 faiz azaldılmışdır.

195
AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az
www.taxes.gov.az

Eyni vergi ilində geoloji ayırma sənədi əsasında faydalı qazıntı yataqlarının (neft və qaz yataqları istisna olmaqla) axtarışı, qiymətləndirilməsi və kəşfiyyatı işlərinə cəlb edilən və istismar edilərək faydalı qazıntılar çıxarılan torpaq sahələrinə münasibətdə tətbiq edilmir.

**Nə dəyişdi?**

Dağ-mədən işlərinin görülməsi üçün geoloji kəşfiyyat və tədqiqat işlərinin aparılması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ayrılan sahələrin tədqiqat və kəşfiyyat müddətində azaldıcı əmsallar tətbiq edilməklə torpaq vergisinin hesablanmasının həyata keçirilməsi investorlar üçün vergi və maliyyə yükünün azalması ilə nəticələnəcək və gələcək hasilatadək xərclərin optimallaşdırılması baş verəcəkdir.

**Nəzərə alın ki....**

Müəssisələrin və təyinatı üzrə istifadə edilməyən kənd təsərrüfatı torpaqları üzrə fiziki şəxslərin torpaq vergisi dövlət büdcəsinə, digər hallarda fiziki şəxslərin torpaq vergisi yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödənilir.

**Torpaq vergisi ilə bağlı ətraflı məlumatla "Dövlət büdcəsinə ödənilən torpaq vergisi" və "Bələdiyyə vergiləri" adlı bukletlərdən tanış ola bilərsiniz.**

**BAKI — 2022**